# "YADDAŞ YANĞISI" - SÜKUTUN FƏRYADI

## (Əlirza Xələflinin 70 yaşına)



DÖVLƏTZADƏ MAHRUX ƏFSƏRAĞA QIZI
*ADPU-nun ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi*

Mən baxtıma kitab açdım, aradım,
Işıq gəzdim, soraq saldım hər dinə.
İstəyimin odu yandı sinəmdə,
Çox gözlədim Araz dinə, Kür dinə.

Bəzən düşünürəm ki, bəlkə də yaşıl yarpaqlarla müqaisədə xəzan olmuş yarpaqlardır torpağı daha çox sevən, bəlkə də vadilərlə müqaisədə sellərin söküb apardığı torpaqdır çayı daha çox sevən. Bəlkə var güçü ilə çaxan ildırım torpağı sel tək yağan yağışdan daha çox sevir, bəlkə mamırlar qayaları daşlardan daha çox sevir ...Bəlkə başı qarlı zirvələri ətəklər səmalardan daha çox sevir ,bəlkə ən yorğun yolçulardır yolları daha çox sevən, bəlkə ruhumuzun yüküdür ən ağır yük, bəlkə susqunluğumuzdur ən böyük fəryadımız , kim bilir...bəlkə də... Axı həyatda hər şey özünü ziddində tapanda bütünləşir, tam olur... Bu isə asanlıqla baş vermir. Bəzən ziddiyyətlər bizi yorar, bu yorğunluqla da biz baxtımıza kitab açar, taleyimizlə barışarıq. Alın yazısına inanmağa başlayarıq...

Əli Rza Xələflinin yenicə çapdan çıxmış " Yaddaş yanğısı" kitabıdır məni bu fikirlərə salan. Şairin yurd yeri düşüncələri "Baxtıma kitab açdım" la başlayır. Şeirləri oxuduqca mənə elə gəldi ki, şairin bütün ağrısı-acısı, yur yeri həsrəti, acılı- şirinli xatirələri hamısı bu bir sətrin - "Mən baxtıma kitab açdım, aradım" misrasının içindən keçə bilər...

Baxtına kitab açan şair Əli Rza Xələfli kimdir ? -sualının o qədər geniş cavabı var ki... O, Həsən bəy Zərdabidən miras qalan klassik jurnalistikamızın sonuncu mogikanıdır. O, yurdu müqəddəs bilən el adamıdır.O, xalqın dərdlərini sözə köçürüb dua kimi göylərə göndərən ağsaqqal bir şairdir.O, xalqın içindən çıxan,amma elə xalqın içində qalan, xalqının şairi, jurnalisti, yazıçısı, fikir adamı, söz aşiqi, vətən sevdalısı Əlirza Xələflidir. Onun üçün ən uca zirvə sona kimi qət edə bilmədiyi Xudafərinin özüdür. Onun üçün ən qiymətli yer, həsrətini çəkdiyi Xələflidə bir daş evdir. Bir sözlə, "Gözlədiyi haqq yolu yanından keç"sə də həqiqət arayışından usanmayan , ilahi ədalətə inamı sarsılmayan şairdir Əli Rza Xələfli.

Bizim günlərin qələbələrlə dolu azərbaycançılıq ideyaları mövqeyindən Əli Rza Xələflinin milli ideyalarının təkamül prosesinə retrospektiv bir nəzər salmağa çalışsaq əmin olacağıq ki, onun məmləkət sevdası " Yaddaş yanğısı"ndan "Od" aldı , böyük bir "Ağrı" ilə səsləndi, "Bir bülbülün türküsü" kimi hər tərəfə ün saldı.Onu hamı nəğməsindən tanıdı, axı bu nəğmələrdə "Bir ayrılıq odu var " idi.




Yangısını şerinin sərinliyində ovudandan sonra isə "Dağlarda duman qaldı" və təbii ki, gəldiyimiz nəticə bu olacaq ki, "Dünya yazana qaldı".

Hər zaman inandığım bir şey var: yaradıcı insanın şəxsiyyəti onun yaradıçılığını tamamlayır. Əli Rza Xələflinin ədəbi- ictimai şəxsiyyəti barədə ən mükəmməl təsəvvürü , heç şübhəsiz, onun milli təəssübkeşliyi yaradır ki, bu təəssübkeşliyin yarım əsrlik kifayət qədər zəngin bir tarixi var. Ölkədə gedən ədəbi prosesi işıqlandıran "Kredo" qəzeti isə şairin təəssübkeşliyini sübut etməyə yetərli bir mənbədir.

Vətən həsrətli şeirləri şairin ruhunun qanama şəklidir. Ruhun yükü ağırdır, o el təəssübü, yurd həsrəti, millət qayğısı çəkir. Amma Zəm-zəm özünü arındırdığı kimi şairin qəlbi də bu yükü sözlə yoğurub şeirə çevirir.Bu da Əlirza Xələfli şeirini qüdrətli edir. Şairin estetik idealı ümidsizliklə ümidin , zülmətlə işığın amansız çarpışmasından təcəlli edir:

Gün ötür, əyilir ömrümün yaşı,
Ümidlər üzülüb yolda qalmasın;
Çatım yurd yerinə, öpüm hər daşı.
Daş üstə çiçəklər daha solmasın.

Şairin yaradıcılığı üçün səciyyəvi olan nikbin mübarizlik onun milli təəssübkeşliyinin sağlam duyğular, düşüncələr, eləcə də son dərəcə aydın, anlaşıqlı poetik rəmzlərlə ifadəsi üçün ideya-estetik şərtdir. Şair ən çətin anlarda da daxili inamından güc alır.İnamın ətəyindən tutub bir növ cəngavərlik səfərinə çıxır.Bu cəngavərin səsinin hökmündə, danışdıqca artan səs tonunda nikbinliyi hiss olunur.Şairin qələmi od tutub alışır, bu odun alovu yaddaşının saralmış vərəqlərini qarsır, " Yaddaş yanğısı" belə yaranır:

Yaddaşım çağıran səsə gedirəm,
Yolları kol basıb, çığırlar itib:
Istədim yaddaşın qoluna girəm,
Onun da üstündə tikanlar bitib.

Yalnız şeirlə, gözəl deyilmiş sözlə bu tikanları gülü-çiçəkli bağa çevirmək olar.

... Elə düşünməyək ki, düşmən həmişə əlisilahlı hərbi geyimli olur. O, insanın düşüncəsini zəhərləyən bir sənət əsəri, bir musiqi, bir film, bir radio, ya da televiziya verilişi, göz önündə olanın pis nümunəsi də ola bilər. Ən qəddar düşmən düşüncəni hədəf almış düşməndir. Müasir dövrümüzdə belə düşmənlərin " bolluğunu" yaşadığımız vaxtda, Əlirza Xələfli kimi sözə dəyər verən, vətənin istiqbalını ən böyük amalı hesab edən, Azərbaycan gənclərinin aydınlanması üçün qəlbini məşələ çevirən ziyalılarımıza ehtiyacımız çoxdur. Ziyalı öz zəmanəsindən yüksəkdə durmasa, işığı ətrafa yayılmaz. Böyük insanlar dağa bənzəyir: yaxınlaşdıqca əzəmət və qüdrəti daha aşkar bilinir. Kiçik insanlar isə ilğım kimidir:yaxınlaşdıqca nə qədər faydasız və aldadıcı olduğu üzə çıxır. Zahirən nə qədər sadə görünsə də, vətənpərvərliyindən güc alan bir əzəməti, işığı ilahidən gələn qüdrətli sözünb sərrafıdır Əli Rza Xələfli.

"Dağ yeridi, dərə gəldi üstümə" deyib qələmini qılınc sayağı sıyırıb fikirləri qanına qəltan edən şair ağ vərəqlərə öz ürəyinin qanını axıdır.Onun yaraq-əsləhəsi öldürmək üçün deyil, qorumaq üçündür:

Lənət nişangahı.. bir topa daş var,
Bir daş da mən atım qalağın üstə;
Cırların meyvəsi ağız turşudar,
Bəhər göz oxşayan calağın üstə.

Şeirlərində yaşadığı yaxın keçmişin siyasi proseslərindən doğan fəlakətləri də ifadə etməyə çalışan şairin bu dörd misrasında o qədər rəng çaları , sətiraltı məna tapmaq olar ki... Müdrik şairin yaddaşı kim bilir nələri sürükləyib özü ilə gətirir.Amma o, sözünün gözəlliyinə gözəllik qataraq qəzəbini cilovlayır, misralar öz-özünə hikmətli bir deyimə çevrilir.

Oxucu onun qəlbinin tamamını sarıb-sarmalamış dərdlərindən yox, dərdlərini dilə gətirmə tərzindən, şeirin canına hopmuş rayihədən zövq alır, ruhən dincəlir. Ruhunun sancısını dilə gətirən şair düşüncələrinin uzun bir yolçuluğuna çıxır, çox vaxt " güllər ötən ömrün bağında solsa" da, " həvəsin yolunu qocalıq kəssə də" "üzü Xələfliyə uçur xəyalı".

Yarı yolda qalmaq acıdan acı.
Mən gərək diklənim...gözləyənim var;
Illərdir gözləyib həsrət əlacı,
Yurd yeri üstündə sızlayanım var.

Bütün şeirlərində misraların poetik tutumu, onların emosional bədii təsviri, hiss və həyəcanların, duyğu və düşüncələrin assosiativ təsəvvür gücü şeirin ideya mövqeyini möhkəmlədərək kədər mötivinə ardıcıl və davamlı bir xarakter yükləyir. Kədər, qəm dünya şairlərinin romantizminin əbədi motivləridir. Qəmi doğuran səbəb və halların, acı həqiqətlərin şair düşüncəsində poetikləşdirilməsindən zövq alar oxucu. Kədər böyüdükcə şairin ilhamı İlahinin qüdrəti ilə coşar, fəlakətin onda oyatdığı hiss və düşüncənin romantik inikası əsrarəngiz olar.

Baxıram dolaylar, təpələr tanış,
Sözə çəpər çəkir fikir dağları!...
Dalğalı xəyallar, ləpələr tanış,
Güllənir gözümdə yaddaş bağları.

Şairi narahat edən hisslər hamımıza tanışdır. Məsələyə konseptual yanaşdıqda şairin lirik mənində mübarizə ruhunun ümidsizlik duyğusundan qat-qat qüvvətli olduğu hiss olunur.

Hər xaraba yurda salam verirəm,
Gözlərim odlanır köz daşlarında;
Bu da bizim məktəb, dərdlər dərirəm,
Yanıb qovruluram göz yaşlarında.

Səbr susqunluq deyil, eşidilməyən fəryaddır. O, duyğuların ümidsizlik qatını basdırır, yaranan təzyiqdən ümid qığılcımları şölələnir. Bu zaman onların poetik tutumuna kölgə düşmür, əksinə , kədər motivinin ağırlıq dərəcəsi daha aydın dərk olunur. Əli Rza Xələfli şeirlərinin birində yazır ki, əgər bir ağacın kölgəsi sağdırsa, o ağac sağdır, əgər xatirələr qürbət yerlərdəndirsə, o xatirə özü qürbətdədir.

Xələfli məktəbi... ruhu yaşayan.
Bu kəndin ən uca şəhidi sənsən

-misraları da həmin fikirlərin davamı kimi səslənir. Elmə, maarifə, onun ocağına sayqısı, hörməti sonsuzdur qocaman söz ustadının. Hələ xatirində canlandırdığı lövhələrə görə göz yaşında qovrulan şairin vətənin, yurd yerinin vüsalına çatanda hansı hisslər keçirəcəyini təsəvvür etmək o qədər də çətin deyil. Aqillərdən biri deyib ki, insan ağlındakılarla gündüzlər, ürəyindəkilərlə gecələr çarpışar. Düşünürəm ki, əgər ağlındakı ilə qəlbindəki fikir eynidirsə,o zaman insanın gecəsi gündüzünə qarışar. Fikir kələfi dolaşar ...

...Tale niyyətə aşiqdir. Şairin ahından tüstü qalxan, yarasından qan damlayan 30 illik yurd yeri həsrətinə son qoyuldu, Xudafərində ( şimalında), Cəbrayılda üç rəngli əlvan bayrağımız dalğalandıqca, vətənimiz Azərbaycanın başı üstündəki qara dumanlar çəkildikcə şair də illərlə bəslədiyi arzularına qovuşdu, yurd yerinin xarabalıqlarında dolaşdıqca divarlardan qopan daşları xatirələri kimi bir yerə toplamağa çalışdı.

Bəlkə o gənc yenə bəxt səhərində
məndən ayrıldığı o yerdə durur
Bəlkə qaya olan, daş olan oğlan,
Gözləyir bulağa gedən qızları

"Yaddaş yanğısı" xatirələri yandırsa da külə döndərə bilməyib. Bəlkə elə bu misralar da o küllərin altındakı közərən qordur.

"Adları, izləri yazıya alıb" nəsillər boyu əmanət qoyan qocaman söz ustadı Əli Rza Xələfli xəyalların şairi deyil. Onun poeziyası milli şüurun və milli yaddaşın poeziyasıdır, xalqın, millətin öz mənliyini, əzəmətli , həm də keşməkeşli keçmişini dərk etmək uğrunda mübarizəsinin, ağrılara tab gətirən iradə gücünün, mətanət və mərdanəliyin poeziyasıdır. Bu yazı "Yaddaş yanğısı"nı ideya-estetik təfsilatı ilə əhatə etmək gücündə və iddiasında deyil.Sadəcə, bu yanğıya göz yummaq, bu səssiz fəryada laqeyd qalmaq mümkün deyil. Axı insanlar sadəcə dediklərinə görə deyil, susduqlarına görə də məsuliyyət daşıyırlar.